

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 may 2026-cı il №33 (3035) https://mod.gov.az Qiymәti 30 qəpik

## Prezident İlham Əliyevin Qazaxıstana işgüzar səfəri




***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün mayın 15-də bu ölkəyə işgüzar səfərə gəlib.***

Türküstan şəhərinin Hazret Sultan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidentini Qazaxıstanın Dövlət müşaviri Yerlan Karin, Türküstan vilayətinin akimi Nuralxan Kuşerov və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən digər prezidentlərlə birlikdə Türküstan şəhərindəki "Həzrət Sultan" Muzey-Qoruğu ilə tanış olub.

Dövlət başçılarına qoruq haqqında məlumat verildi. Bildirildi ki, "Həzrət Sultan" Milli Tarix-Mədəniyyət Muzey-Qoruğu 1989-cu ildə yaradılıb. Muzeydəki "Nadir Eksponatlar Zalı" Qazaxıstanın ən əhəmiyyətli muzey və sərgi layihələrindən biridir. Məqsəd orta əsrlər dövrünün nadir tarixi və mədəni irsini qorumaq və təbliğ etməkdir. Muzeydə Türküstanın zəngin tarixi, Türk dünyasının mənəvi irsi və Xoca Əhməd Yasəvi məqbərəsinə aid nadir artefaktlar nümayiş olunur. Hazırda muzey-qoruğun kolleksiyasında 26 mindən çox eksponat var ki, onların da təxminən 80 faizi artefaktdır.

* * *

Sonra Türküstanda yerləşən Xoca Əhməd Yasəvi məqbərəsi ilə tanışlıq oldu. Bura Mərkəzi Asiyanın ən böyük İslam memarlığı abidələrindən biridir və Qazaxıstanın mənəvi rəmzi kimi qəbul edilir. Məqbərə XIV əsrin sonunda görkəmli sufi şair, mütəfəkkir Əhməd Yasəvinin dəfn olunduğu yerdə Əmir Teymurun göstərişi ilə inşa olunub. Vahid memarlıq dizaynına malik bu kompleksdə 35-dən çox müxtəlif təyinatlı otaq yerləşir. Nadir artefaktların saxlanıldığı məqbərə İslam dünyasının mənəvi və mədəni mərkəzlərindən biri hesab olunur.

**(Ardı 2-ci səhifədə)**

## "EFES-2026" çoxmillətli təlimində snayperlər qarşıya qoyulan vəzifələri yerinə yetiriblər



Mayın 13-də Türkiyə Milli Müdafiə Nazirliyi Azərbaycan hərbçilərinin də iştirak etdiyi "EFES-2026" çoxmillətli təlimi çərçivəsində snayperlərin peşəkarlıq və döyüş bacarıqlarını artırdıqları görüntüləri paylaşıb.

AZƏRTAC xəbər verir ki, təlim zamanı snayperlər atəş mövqeyi seçmək, müxtəlif məsafələrdəki hədəfləri dəqiq atəşlə vurmaq və digər tapşırıqları yerinə yetiriblər.

"EFES-2026" təliminin əsas məqsədi genişmiqyaslı əməliyyatlar zamanı iştirakçı ölkələrin bölmələri arasında koordinasiyanı gücləndirmək, döyüş hazırlığını artırmaq və hərbi qulluqçuların praktiki bacarıqlarını təkmilləşdirməkdir.



## "EFES-2026" təlimində Azərbaycan və Türkiyə nümayəndələrinin görüşü keçirilib



Türkiyədə keçirilən "EFES-2026" çoxmillətli təlimi çərçivəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri general-leytenant Azər Əliyevlə Ege Ordusu və Qarnizon komandanı ordu generalı İrfan Özsert arasında görüş keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə ölkələrimizin iştirakı ilə keçirilən beynəlxalq təlimlərin ordularımızın döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasına mühüm töhfələr verdiyi xüsusi vurğulanıb.

Qeyd olunub ki, bu cür tədbirlər hərbi qulluqçularımızın bilik və bacarıqlarının artırılmasında, təcrübə mübadiləsinin genişləndirilməsində, eləcə də hərbi sahədə əməkdaşlığın möhkəmləndirilməsində böyük əhəmiyyətə malikdir.

Tərəflər, həmçinin hərbi və hərbi-texniki sahələrdə həyata keçirilən birgə fəaliyyətlər, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlərə dair geniş fikir mübadiləsi aparıblar.





## Kursantların praktiki məşğələləri davam edir



Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Bakı Hərbi Kollecində kursantların praktiki məşğələləri planauyğun şəkildə davam etdirilir.

Milli Müdafiə Universiteti xəbər verir ki, "Aviasiya mühərriklərinin konstruksiyası", "Aviasiya avadanlıqlarının istismarı" və "Aviasiya silahlarının istismarı" mövzularını əhatə edən məşğələlərin əsas məqsədi kursantların nəzəri biliklərini möhkəmləndirmək, peşə hazırlığını təkmilləşdirmək və gələcəkdə gizir kimi xidmətə hazırlıq səviyyələrini artırmaqdır.



Məşğələlər zamanı kursantlar aviasiya texnikasının quruluşu və istismar qaydaları üzrə praktiki bacarıqlar əldə edir, müxtəlif tapşırıqların icrası zamanı operativ qərarvermə və kollektiv fəaliyyət vərdişlərini inkişaf etdirirlər.

# Prezident İlham Əliyevin Qazaxıstana işgüzar səfəri



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən digər prezidentlər mayın 15-də Türk Sivilizasiyası Mərkəzinin onlayn təməlqoyma mərasimində iştirak ediblər.

Dövlət başçılarına Mərkəz barədə məlumat verilib.

Bildirilib ki, layihə türk xalqlarının zəngin tarixi, mədəni və mənəvi irsinin qorunub saxlanmasına, öyrənilməsinə və təbliğinə yönəlib. Ən qabaqcıl standartlara uyğun inşa ediləcək mərkəzin əsas ideyası türk sivilizasiyasının dünya tarixində özünəməxsus yeri, dərin fəlsəfəsi və dövlətçilik ənənələri olan böyük sivilizasiya olduğunu nümayiş etməkdir.

* * *

Sonra "GovTech" rəqəmsal həllərin təqdimatı oldu. Qazaxıstanda süni intellektin inkişafı ilə bağlı həyata keçirilən layihələr barədə qonaqlara məlumat verildi. Eyni zamanda qeyd edildi ki, türk dövlətləri arasında, həmçinin bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial var.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın Türküstan şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edib.

Dövlətimizin başçısını Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev qarşılayıb.

Azərbaycan Prezidenti və tədbirdə iştirak edən digər dövlət başçıları birgə foto çəkdiriblər.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli dövlət başçıları.

İlk növbədə, göstərilən səmimi qonaqpərvərliyə görə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Qədim və zəngin tarixi-mədəni irsə malik Türküstan şəhərində olmaqdan çox məmnunam. Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın işğaldan azad edildikdən



sonra qardaşlaşdığı ilk şəhər Türküstan şəhəri olmuşdur. Qədim şəhərlərimiz də xalqlarımız kimi qardaşdır.

Qazaxıstan ilə Azərbaycan arasındakı sıx əlaqələri nümayiş etdirmək üçün təkcə prezidentlər səviyyəsində həyata keçirilən qarşılıqlı səfərləri göstərmək olar. Son 5 ildə bu, mənim Qazaxıstana səkkizinci səfərimdir. Prezident Tokayev isə Azərbaycana altı dəfə səfər etmişdir. Dörd il əvvəl imzalanmış Birgə Bəyannamə əlaqələrimizi müttəfiqlik səviyyəsinə qaldırmışdır.

Sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının ilk dəfə 2024-cü ildə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşü təşəbbüsü artıq ənənəyə çevrilir.

Bu gün Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir. Keçən ilin oktyabr ayında Qəbələ Zirvə Görüşündə sədrliyi qəbul edən Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsi istiqamətində fəaliyyət göstərir.

Yaxın günlərdə Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində Türk Dövlətləri Təşkilatının şəhərsalma üzrə yüksəksəviyyəli dialoqu təşkil ediləcək.

Türk xalqlarının elmi-mədəni birliyinə böyük töhfə vermiş Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilən Türk dünyası həftəsi iyun ayında Bakıda keçiriləcək. Əminəm ki, bu tədbir xalqlarımızın mədəni həyatında əlamətdar hadisəyə çevriləcək.




Hörmətli həmkarlar, Zirvə görüşünün mövzusu dövrümüzün çağırışlarını və prioritetlərini əks etdirir. Dünya rəqəmsal inkişaf və süni intellekt yaratdığı imkanlar sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyur. Türk dövlətləri bu prosesdə ön sıralarda yer almalıdır.

Azərbaycanın rəqəmsal suverenliyinin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi əsas vəzifələrimizdən biridir. Bu məqsədlə Rəqəmsal İnkişaf Şurası, Milli Süni İntellekt Mərkəzi və Süni İntellekt Akademiyası yaradılmışdır.

Ötən il ölkəmizdə Süni İntellekt Strategiyası qəbul edilmişdir. Strategiyanın əsas məqsədləri sırasında süni intellekt sənayesinin inkişafı, ixtisaslı kadrların hazırlanması və süni intellektin dövlət idarəçiliyində geniş tətbiqi yer alır.



Ölkəmizdə sabit genişzolaqlı internetin əhatəsi 100 faizə çatdırılmışdır. Bütün dövlət xidmətlərinin vahid rəqəmsal platforma üzərindən həyata keçirilməsi istiqamətində işlər davam edir.

Bununla yanaşı, süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi, onun qanunazidd məqsədlər üçün istifadəsinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir.

Rəqəmsal inkişaf sahəsində türk dövlətləri ilə əməkdaşlıq uğurla davam edir. Avropa ilə Asiya arasında "Rəqəmsal İpək Yolu" layihəsi icra olunur. Bu layihənin tərkib hissəsi olan, Azərbaycan ilə Qazaxıstan arasında Trans-Xəzər Fiber-Optik Kabel xəttinin yaxın aylarda istifadəyə verilməsi planlaşdırılır.

Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız genişlənir. Cari qlobal geosiyasi şəraitdə Orta Dəhlizin əhəmiyyəti daha da artır. Reallaşmaqda olan Zəngəzur dəhlizi Orta Dəhlizin əsas seqmentlərindən birinə çevriləcək.

Orta Dəhliz boyunca gömrük prosedurları sadələşdirilir. Türk Dövlətləri Təşkilatı çərçivəsində hazırlanmış "e-Permit" sistemi elektron icazələrin operativ şəkildə verilməsini təmin edir.

Əziz dostlar, ailəmiz olan Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir. Azərbaycan bundan sonra da Türk Dövlətləri Təşkilatının möhkəmləndirilməsi naminə səylərini əsirgəməyəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Sonda dövlətimizin başçısı və digər prezidentlər Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün Türküstan Bəyannaməsini və Türk Dövlətləri Təşkilatının Baş katibinin müavininin təyin olunması haqqında qərarı imzalayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına işgüzar səfəri mayın 15-də başa çatıb.

Türküstan şəhərinin Hazret Sultan Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev yola salıb.



**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan müdafiə nazirinin Slovakiyaya səfəri






Slovakiya Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov IDEB (International Defence Exhibition Bratislava) Beynəlxalq Müdafiə və təhlükəsizlik konfransında və sərgisində iştirak edib.

Müdafiə Nazirliyi xəbər verir ki, sərgidə təqdim olunan müdafiə sənayesi məhsulları ilə tanışlıqdan sonra "Robot tərəfindən təkmilləşdirilmiş partlayıcı qurğunun zərərsizləşdirilməsi" və "Patron FPV" PUA-sı vasitəsilə təkərli və tırtıllı texnikaya hücumun nümayişləri izlənilib.

Səfər çərçivəsində general-polkovnik Z.Həsənov Çex Respublikasının Baş nazirinin müavini və müdafiə naziri cənab Yaromir Zuna ilə görüşüb. Görüş zamanı tərəflər iki ölkə arasında qarşılıqlı əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər.



# “EFES-2026” təlimi davam edir

*Türkiyə Respublikasında hərbi qulluqçularımızın iştirakı ilə keçirilən "EFES - 2026" çoxmillətli birgə müştərək təlimi davam edir.*



Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan nümayəndə heyətinin rəhbəri general-leytenant Azər Əliyev təlimin keçirildiyi ərazi ilə tanış olub, təlim yerlərində yaradılan şərait və yerinə yetirilən fəaliyyətlərlə maraqlanıb.



Qeyd edək ki, təlimdə əsas diqqət iştirakçı ölkələrin bölmələri arasında birgə fəaliyyətlər zamanı koordinasiyanın gücləndirilməsinə və qarşılıqlı təcrübə mübadiləsinin aparılmasına yönəldilib.

## Azərbaycan və Özbəkistan HHQ nümayəndələri arasında görüş keçirilib

Azərbaycan və Özbəkistan Müdafiə nazirlikləri arasında imzalanmış 2026-cı il üçün ikitərəfli əməkdaşlıq planına əsasən, bu ölkənin Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin (HHQ) nümayəndə heyəti ölkəmizə səfər edib.

Müdafiə Nazirliyi xəbər verir ki, HHQ-də keçirilən görüşdə ölkələrimiz arasında digər sahələrdə olduğu kimi, hərbi aviasiya və hava hücumundan müdafiə üzrə əməkdaşlıqların da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Tərəflər, həmçinin Azərbaycan-Özbəkistan hərbi əməkdaşlığının cari vəziyyəti, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparıblar.



Qeyd edək ki, səfərin başlıca məqsədi hər iki ölkənin HHQ-ləri arasındakı əməkdaşlığın inkişaf etdirilməsi və qarşılıqlı təcrübə mübadiləsinin aparılmasıdır.

## Azərbaycan və Belarus hərbi informasiya sahəsində nümayəndələrinin işçi görüşü keçirilib





Minsk şəhərində Azərbaycan Respublikası və Belarus Respublikasının Müdafiə nazirliklərinin hərbi informasiya sahəsində nümayəndələrinin işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşdə Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi - mətbuat katibi polkovnik Anar Eyvazov Azərbaycan Ordusunun Qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi, antiterror və digər döyüş əməliyyatları zamanı informasiya təminatı və dezinformasiyalara qarşı aparılan mübarizə tədbirlərindən danışıb.

Tərəflər, həmçinin strateji kommunikasiyalar sahəsində əməkdaşlıq, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti "Xatın" memorial kompleksini ziyarət edib, Belarus Silahlı Qüvvələrinin hərbi informasiya agentliyi "Vayar" və "VoenTV", eləcə də bir sıra mədəniyyət mərkəzlərinin fəaliyyəti ilə tanış olub.

# Azərbaycan Ordusunun inkişaf mərhələləri və tarixi Zəfər



Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində və milli təhlükəsizliyin təmin edilməsində güclü ordunun rolu həlledici əhəmiyyət daşıyır. 1990-cı illərin əvvəllərində ölkədə mövcud olmuş mürəkkəb hərbi-siyasi vəziyyət pərakəndə halında olan silahlı birləşmələrin formalaşdırılmasını strateji vəzifəyə çevirmişdi. Ölkədə hökm sürən xaos və nizami ordu strukturunun zəifliyi ciddi təhlükələr yaradırdı. Məhz belə bir vəziyyətdə xalqın taleyini düşünmək, onun qeydinə qalmaq üçün böyük bir siyasətçinin hakimiyyətə gəlməsi labüd idi. Xalqın böyük təkidi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ordu quruculuğunu dövlət siyasətinin əsas prioritetlərindən biri elan etdi. Ulu Öndərin hərbi sahədə həyata keçirdiyi islahatlar nəticəsində silahlı dəstələr vahid komandanlıq altında birləşdirildi, nizami ordu formalaşdırıldı, hərbi intizam və idarəetmə sistemi möhkəmləndirildi. Eyni zamanda, Azərbaycanın beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiyası istiqamətində mühüm addımlar atıldı. Orduda NATO standartlarına uyğunlaşma prosesi başlanıldı, peşəkar zabit kadrlarının hazırlığı üçün hərbi sistem yenidən quruldu. Bu mərhələ gələcəkdə müasir və çevik ordu modelinin formalaşmasına zəmin yaratdı.

Azərbaycan Ordusunun güclənməsi təkcə hərbi sahə ilə məhdudlaşmadı, eyni zamanda, milli ruhun və vətənpərvərlik ideologiyasının formalaşmasında da mühüm rol oynadı. Cəmiyyətin orduya inamı artdı, gənclər arasında hərbi xidmətə maraq daha da gücləndi. Bu amillər sonrakı illərdə xalqımızın böyük Zəfərə nail olmasının əsasını təşkil etdi.

Dünya şöhrətli siyasətçi Heydər Əliyevin strateji xətti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2003-cü ildə xalqın böyük istəyi ilə Prezident seçilən dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Belə ki, Azərbaycan Ordusunun maddi-texniki bazası müasir standartlara uyğun şəkildə gücləndirildi, ən son nəsil silah və hərbi texnika arsenalına daxil edildi. Azərbaycanın hərbi sənaye potensialı inkişaf etdirildi, ölkə daxilində müxtəlif növ müdafiə təyinatlı məhsulların istehsalı təmin edildi.

Prezident İlham Əliyevin siyasətində ordu quruculuğu ilə yanaşı, diplomatik fəaliyyəti də xüsusi yer tutur. Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə ilə bağlı ölkənin haqlı mövqeyi beynəlxalq müstəvidə ardıcıl şəkildə müdafiə olundu. Xüsusilə 2020-ci ildə başlayan və 44 gün davam edən Vətən müharibəsi zamanı dövlət başçısının xarici media qurumlarına verdiyi çoxsaylı müsahibələr Azərbaycanın informasiya cəbhəsində üstünlük qazanmasına mühüm töhfə verdi. Prezident İlham Əliyevin həmin müsahibələrində ölkəmizin ədalətli mövqeyi real faktlara əsaslanaraq dünya ictimaiyyətinə çatdırıldı. Bütün dünya ölkəmizin haqq-ədalət uğrunda apardığı mübarizənin şahidi oldu.

Ölkəmizin tarixi torpaqları, doğma yurdumuz - Qarabağımız uğrunda aparılan savaş xalqımızın haqlı mövqeyini bir daha təzahür etdirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdi. Dövlətin siyasəti, dəmir iradəsi, xalqımızın bir yumruq ətrafında birləşməsi qazanılan tarixi Zəfərin açarı oldu.

Əks-hücum əməliyyatı nəticəsində düşmənin uzun illər ərzində qurduğu mühəndis-istehkam xətləri qısa müddətdə yarıldı. Azərbaycan Ordusu yüksək peşəkarlıq, koordinasiya olunmuş idarəetmə və müasir silah sistemlərinin effektiv tətbiqi sayəsində tarixi Zəfər qazandı. Prezident İlham Əliyevin təbiri ilə desək, "Dəmir yumruq" kimi birləşən xalq- dövlət-ordu birliyi tarixi Zəfərin əsas təminatçısına çevrildi. Nəticədə, vaxtilə işğal altında olmuş torpaqlarımız azad edildi, ölkənin ərazi bütövlüyü təmin olundu. Vətən müharibəsi həm hərbi qələbə, həm də milli iradənin, siyasi gücün və xalqın birliyinin təntənəsi kimi tarixə düşdü.

Postmüharibə dövründə Azərbaycan Ordusunun modernləşdirilməsi prosesi daha da geniş vüsət aldı. Azad edilmiş ərazilərimizdə yeni hərbi infrastrukturların yaradılması, müasir hərbi hissələrin formalaşdırılması və şəxsi heyətin peşəkarlığının artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan Ordusu bu gün regionda sabitliyin və təhlükəsizliyin əsas təminatçılarından biridir. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğu siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilərək Azərbaycanın hərbi gücünü zirvəyə yüksəltdi. Güclü dövlət prinsipinin real təzahürü olan Azərbaycan Ordusu bu gün dövlət müstəqilliyimizin və suverenliyimizin ən etibarlı qarantıdır.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# Laçın - işğaldan azadlığa...



*Azərbaycanın dilbər guşələrindən, tarixi ərazilərindən biri olan Laçın antik dövrlərdə və erkən orta əsrlərdə Albaniya və Atropatena dövlətlərinin tərkib hissəsi olmaqla, ölkəmizin ən qədim insan məskənlərindəndir.*

Əvvəllər Abdallar adlanan, 1924-cü ildən şəhər statusu alan Laçın şəhəri 1930-cu ildən rayon mərkəzidir. Şəhərin adı görkəmli Azərbaycan yazıçısı Tağı Şahbazi Simurq tərəfindən yaxınlıqdakı dağın adına uyğun olaraq Laçın adlandırılıb. Laçın sözü "məğrurluq" mənasını bildirir.

Laçın rayonu Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin başladığı ilk illərdən strateji əhəmiyyəti ilə digər rayon və şəhərlərimizdən fərqlənib. Erməni silahlı birləşmələri Laçını işğal edərək Qarabağla Ermənistan ərazisindən bağlılıq yaratmaq niyyətində idi. Hər zaman Laçın və buradan keçən dəhliz uğrunda gərgin döyüşlər gedib, nəhayət, Ermənistan bu şəhəri işğal edib. Bundan sonra gedən proseslər artıq bizə məlumdur.

1992-ci ilin əvvəllərində Azərbaycanda ağır siyasi böhran yaşanırdı. Laçın dəhlizinin açılması Ermənistan ordusunun müharibə illərindəki ən böyük nailiyyətlərindən birinə çevrilir, çünki bu dəhlizdən gələn dəstəklər nəticəsində Dağlıq Qarabağda məskunlaşan ermənilərin hərbi imkanları dəfələrlə artmışdı.

Ermənistan silahlı qüvvələrinin hücumu sürətli şəkildə həyata keçirilirdi. Onlar 18 may 1992-ci ildə Laçına daxil oldu və şəhər müqavimətsiz işğal edildi. Ermənilər Laçını işğal etdikdən sonra onu talan və məhv etdi, Laçın dəhlizi ərazisində yerləşən yaşayış məntəqələrini yandırdılar. Laçın şəhərinin təqribən 7,800 nəfərdən ibarət Azərbaycan və kürd əsilli sakini qaçqın düşdü. Ermənilər yerli əhalidən də əsirlər götürmüşdülər. Ümumilikdə, işğal nəticəsində Laçın rayonuna 7,1 milyard ABŞ dollarından çox ziyan dəymiş, 58736 nəfər laçınlı öz doğma torpağından didərgin düşərək məcburi köçkün kimi respublikanın 58 şəhər və rayonunda məskunlaşmışdır.

27 sentyabr 2020-ci ildə başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi 10 noyabrda Üçtərəfli Bəyanatın imzalanması ilə başa çatdı. Bəyanatın şərtinə əsasən, 1 dekabrda Laçın rayonu Azərbaycana qaytarıldı. Buna baxmayaraq, Laçın dəhlizi və şəhəri Rusiya sülhməramlılarının nəzarətinə verildi.

Birinci və İkinci Qarabağ müharibələrində bütün istiqamətlərdə döyüşən Laçının igid oğullarından 285 nəfər şəhid olmuş, 66 nəfər girov götürülmüş, 120 nəfər əlil olmuş, yüzlərlə uşaq yetim qalmışdır. Müharibədə xüsusi şücaət göstərmiş laçınlılardan beş nəfəri "Azərbaycan Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Laçın rayonu, Azərbaycanın strateji əhəmiyyətli bölgələrindən biri kimi, həm konflikt, həm də postkonflikt dövründə mühüm geosiyasi hadisələrin mərkəzində olmuşdur.

Azad olunduqdan sonra rayonda genişmiqyaslı infrastruktur layihələri, yol çəkilişləri və bərpa-quruculuq işləri sürətlə başlanmışdır. 2022-ci il avqustun 26-da isə ordumuz Laçın şəhərini, Zabux və Sus kəndlərini nəzarətə götürdü. Nəhayət, sentyabrın 21-də Laçın şəhərində Müzəffər Ali Baş Komandan tərəfindən Azərbaycanın Dövlət Bayrağı ucaldıldı. Çox keçmədən daha bir mühüm addım atıldı. Üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi quruldu. Bununla da proseslər öz məntiqi sonluğuna çatdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində Laçının işğaldan azad olunmasının əhəmiyyətini vurğulayaraq deyib: "Laçın rayonunun bizə qaytarılması, əlbəttə ki, tarixi məsələdir. Biz müharibə zamanı təqribən 5 min kvadratkilometrə yaxın ərazini döyüş meydanında azad etdik, müharibə yolu ilə azad etdik. Eyni zamanda, təxminən bir o qədər - 5 min kvadratkilometrə yaxın ərazini sülh yolu ilə qaytardıq. Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı... Amma çox dəqiq, məqsədyönlü, ardıcıl siyasət apararaq bir nöqtəyə vururduq, bir məqsədimiz var idi - torpaqlarımızı düşməndən təmizləmək. Buna nail olduq, həm döyüş meydanında, həm danışıqlar masasında və razılaşma yolu ilə".

Bu gün Laçın rayonuna həyat yenidən qayıdır, bərpa-quruculuq işləri yüksək zövq və keyfiyyətlə aparılır. Prezident İlham Əliyevin rayona ilk səfəri zamanı Güləbird Su Elektrik Stansiyası işə salındı.

Hazırda uzunluğu 72,8 km olan Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi davam edir. 2020-ci il iyunun 26-da təməli qoyulan Laçın Beynəlxalq Hava Limanının 2025-ci il mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak etdilər. Laçına növbəti səfəri zamanı Prezident İlham Əliyev şəhərə qayıdan insanlarla görüşüb, onlara evlərin açarlarını təqdim edib.

Çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi davam edir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektlərinin yaradılması istiqamətində də işlər görülür.

Laçında turizm infrastrukturunun inkişafı istiqamətində növbəti layihə icra olunur, kanat yolu ilin sonunadək istifadəyə veriləcək.

Göründüyü kimi, azad olunmuş ərazilərimizdə Böyük Qayıdış proqramı uğurla reallaşır, doğma yurda qayıdanların sevinci yerə-göyə sığmır. Bu tükənməz sevincdən minlərlə laçınlıya da pay düşür.

**Pərvanə İMAMƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# Fransanın azərbaycanlı qəhrəmanı - Əhmədiyyə Cəbrayılov




*Əhmədiyyə Cəbrayılovun həyat və qəhrəmanlıq yoluna nəzər saldıqda onun təkcə bir insan taleyi deyil, bütöv bir mübarizə tarixinin daşıyıcısı olduğu aydın görünür. Onun göstərdiyi şücaət illər keçməsinə baxmayaraq, bu gün də öz aktuallığını qoruyur və yeni nəsillər üçün örnək olaraq qalır. Belə şəxsiyyətlərin xatirəsinin yaşadılması, onların xidmətlərinin geniş auditoriyaya çatdırılması tarixi yaddaşın qorunması baxımından mühüm əhəmiyyət daşıyır.*





Məhz bu məqsədlə qəhrəmanın həyat və döyüş yolunu əks etdirən nəşrlər və tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın Fransa Respublikasındakı səfirliyinin maliyyə dəstəyi və Hərbi Attaşeliyimizin təşkilatçılığı ilə İkinci Dünya müharibəsi zamanı Fransa azadlıq hərəkatına töhfə vermiş qəhrəman həmyerlimiz Əhmədiyyə Cəbrayılovun döyüş yoluna həsr olunmuş kitab Azərbaycan dilinə tərcümə olunaraq oxuculara təqdim olundu. Bu baxımdan Bakı Kitab Mərkəzində Aleksandr Vatənin "Əhmədiyyə Cəbrayılovun Fransa müqavimət hərəkatında döyüş yolu" adlı kitabının Azərbaycan dilində nəşrinin təqdimat mərasimi iştirakçılar tərəfindən böyük maraqla qarşılandı.

Bakı Kitab Mərkəzinin rəhbəri Günel Rzayeva tədbiri açıq elan edərək bildirdi ki, bu gün biz maraqlı və tarixi əhəmiyyətə malik bir kitabın təqdimatı üçün bir araya toplaşmışıq. "Təqdim olunan kitab İkinci Dünya müharibəsi dövründə Fransa Müqavimət Hərəkatının görkəmli nümayəndəsi Şarl de Qolun yaxın dostu və silahdaşı Əhmədiyyə Cəbrayılovun döyüş yolundan bəhs edir. Düşünürəm ki, bu nəşr Fransa-Azərbaycan əlaqələrinin inkişafına daha da mühüm töhfə verəcək. Belə şəxsiyyətlərin xatirəsini yaşatmaq, onların keçdiyi həyat yolunu öyrənmək və gələcək nəsillərə çatdırmaq olduqca vacibdir. Çünki gələcək tarix üzərində qurulur və tarixi isə məhz belə insanlar yazırlar. İnanıram ki, bu kitab Bakı Kitab Mərkəzinin oxucuları tərəfindən də maraqla qarşılanacaq və bizim üçün dəyərli nəşrlərdən birinə çevriləcək".

Sonra Azərbaycan Xarici İşlər Nazirliyinin nümayəndəsi Nigar Hüseynova İkinci Dünya müharibəsində azərbaycanlıların Avropanın müxtəlif ölkələrində - Fransada, Polşada, İtaliyada, Niderlandda yerli xalqlarla çiyin-çiyinə vuruşduğunu xüsusi qeyd etdi. "Qərbi Avropa ölkələrinin işğaldan azad olunması uğrunda döyüşən Əhmədiyyə Cəbrayılov, Mehdi Hüseynzadə, Məmməd Məmmədov kimi həmvətənlərimizin şücaətləri bu gün də fədakarlıq rəmzi, hünər və cəsarət nümunəsi kimi yaşayır. Bu, həmçinin Azərbaycan xalqının sülhə, azadlığa və ümumbəşəri dəyərlərə bağlılığının yüksək göstəricisidir. Fransa Müqavimət Hərəkatında iştirak edən azərbaycanlı partizanlar azadlıq, insanlıq və ədalət uğrunda mübarizənin simvoluna çevriliblər. Onların qəhrəmanlığı təkcə Azərbaycanın deyil, həm də Fransanın tarixində dərin iz qoyub və xalqımız bu igidləri ilə haqlı olaraq fəxr edir. Məhz buna görə də azərbaycanlı döyüşçülərin xatirəsinin daim yaşadılması, onların mübarizə yolunun araşdırılması və gələcək nəsillərə çatdırılması mühüm əhəmiyyət daşıyır. Azərbaycanın Fransadakı səfirliyinin və Hərbi Attaşelik aparatının birgə fəaliyyəti çərçivəsində tarixi yaddaşın qorunmasına xüsusi önəm verilir. Bu fəaliyyət xüsusilə Fransa ictimaiyyətinin İkinci Dünya müharibəsi zamanı ölkənin faşizmdən azad olunması uğrunda döyüşmüş azərbaycanlılar barədə məlumatlandırılmasını əhatə edir. Bu istiqamətdə müxtəlif formatlarda tədbirlər - film təqdimatları, konfranslar, elmi görüşlər təşkil olunur. Məsələn, iki il əvvəl Parisdəki Mədəniyyət Mərkəzində rejissor Tahir Tahiroviçin müəllifi olduğu, Mədəniyyət Nazirliyinin "Salnamə" kinostudiyasında istehsal edilən "O, Xarqo idi" adlı sənədli filmin Fransada ilk təqdimatı keçirilib. Tədbirdə tarixi yaddaşın qorunması, təbliği və gələcək layihələrin hazırlanması ilə bağlı mühüm təkliflər irəli sürülüb".

Kitab təqdimatı Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sofi Laqutun çıxışı ilə davam etdi: "Bu gun burada sizinlə olmaq mənim üçün böyük sevinc və şərəfdir. Əhmədiyyə Cəbrayılov Fransada nasist işğalına qarşı döyüşən yeganə azərbaycanlı deyildi. Amma onun cəsarəti, yaşadığı çətin hadisələr və partizan dəstəsinə verdiyi böyük dəstək onu bu gün də unudulmayan bir qəhrəmana çevirib. Aleksandr Vatənin kitabının Azərbaycan dilinə tərcüməsinə dəstək verdiyi üçün Parisdəki Azərbaycan səfirliyinə təşəkkür edirəm. Bu kitab sayəsində daha çox insan Əhmədiyyə Cəbrayılovun həyatını və Fransanın azadlığı uğrunda mubarizəsini tanıya biləcək. Cəbrayılovun xatirəsi ailəsi tərəfindən böyük sevgi və fədakarlıqla qorunur. Mən bu qış Şəkidə onun ailəsi ilə görüşüb, ailə muzeyi ilə tanış oldum. Orada cənab Vatənin fransız dilində olan kitabını gördüm. İnanıram ki, Azərbaycan dilindəki nəşr də tezliklə ziyarətçilərə təqdim olunan ailə kolleksiyasının bir hissəsi olacaq. Əminəm ki, onun bu araşdırması Fransa ilə Azərbaycan arasında mühüm bir tarixi yaddaşın yaşamasına kömək edəcək".

Təqdimatda çıxış edən kitabın müəllifi, fransız tarixçi Aleksandr Vatən vurğuladı ki, Əhmədiyyə Cəbrayılovla bağlı işimi Fransa səfirliyinin keçmiş Mədəniyyət məsələləri üzrə müşavirinin xahişi ilə başlatmışdım. "O, müntəzəm olaraq tədqiqatçıların Əhmədiyyə barədə sorğuları ilə qarşılaşırdı, onlar haqqında müntəzəm olaraq sorğular alırdı, lakin etibarlı məlumat çatışmazlığı səbəbindən cavab verə bilmirdi. Hərbi tarixə olan marağımı bildiyindən, bu əsgər haqqında araşdırma aparmaq istəyib-istəməyəcəyimi öyrənmək üçün mənə müraciət etdi. Mən də dərin tədqiqat apardım. Nəşr Əhmədiyyə Cəbrayılovun hərbi fəaliyyətindən bəhs edir və tarixi yaddaşın qorunmasına xidmət göstərir. Oxucular bu kitab vasitəsilə cəsarətli döyüşçünün həyat yolu ilə daha yaxından tanış olacaqlar. Əsər yalnız bir insanın qəhrəmanlıq tarixçəsi deyil, eyni zamanda, Azərbaycan və Fransa arasındakı dostluq əlaqələrinin də əksidir. Əhmədiyyə Cəbrayılov nümunəsi digər qəhrəman döyüşçülərə də hörmət hissi aşılayacaq".

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutunun humanitar elmləri şöbəsinin professoru, tarix elmləri doktoru, 1-ci dərəcəli kapitan Nurulla Əliyev bildirdi ki, yaddaş xalqın nəfəsidir. "Qəhrəmanlar heç vaxt unudulmur, onlar daim xatırlanır və gələcək nəsillərin yaddaşında yaşayırlar. Bu gün keçirilən tədbir də bunun bariz nümunəsidir. Azərbaycanın müasir tarixi böyük sınaqlardan, çətin və keşməkeşli yollardan keçib. Bu yol isə qəhrəmanlıq salnamələri ilə zəngindir. Qəhrəmanlarımızın həyatına nəzər saldıqda görürük ki, onların keçdiyi döyüş yolları ağır sınaqlarla, əzab və çətinliklərlə dolu olub, lakin sonda həmişə haqq və ədalət qalib gəlib. Həmvətənimiz Əhmədiyyə Cəbrayılovun həyat yolu yalnız bir insanın taleyi deyil, həm də mərdliyin, Vətən sevgisinin və fədakarlığın nümunəsidir. Bu gün Əhmədiyyə Cəbrayılovun şəxsiyyətində mühüm bir körpünün formalaşdığını görürük - Azərbaycan ilə Fransa arasında dostluq və qarşılıqlı hörmət körpüsünün. Bu bağlar bizi daha da yaxınlaşdırır və möhkəmləndirir. Azərbaycan-Fransa dostluğunun tarixində mühüm səhifələr mövcuddur. Əhmədiyyə Cəbrayılovun simasında biz təkcə bir qəhrəmanı deyil, eyni zamanda, müqavimət hərəkatında iştirak etmiş və böyük şücaət göstərmiş azərbaycanlıların xidmətlərini də görürük. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Milli Müdafiə Universiteti tərəfindən bu dəyərlərin yaşadılmasına töhfə verən hər kəsə təşəkkürümüzü bildiririk. Bu, dostluğun, həmrəyliyin və tarixi yaddaşa hörmətin növbəti təzahürüdür".





Daha sonra Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov çıxışında Əhmədiyyə Cəbrayılovun göstərdiyi xidmətlərin Azərbaycan-Fransa dostluq əlaqələrinin möhkəmlənməsində mühüm rol oynamasından bəhs etdi. "Qəhrəman döyüşçülərin xatirəsinin yaşadılması tarixi yaddaşın qorunması baxımından vacibdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sülh siyasəti bu dəyərlərin qorunmasına xidmət edir".

Təqdimatda çıxış edən Mayis Əmrahov, İlham Hacıyev, Vazeh Əsgərov və başqaları Əhmədiyyə Cəbrayılovun şanlı döyüş yolundan geniş danışdılar. Onun igidliyinin, mərdliyinin, qoçaqlığının, qorxmazlığının vətənsevərliyinin gənc nəslə örnək olduğunu vurğuladılar.

Qəhrəmanın oğlu Cavanşir Cəbrayılov atası haqqında xatirələrini tədbir iştirakçıları ilə bölüşdü, göstərilən xüsusi diqqət və qayğıya görə dövlətimizin başçısına, Müdafiə Nazirliyinə, Azərbaycanın Fransadakı səfirliyinə və Hərbi Attaşeliyə, kitabın müəllifinə, səfirlik nümayəndələrinə və tədbirin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirdi.

Sonra Fransa səfirliyinin əməkdaşları tərəfindən hazırlanmış videoçarx nümayiş olundu.

Sonda müəllif tədbir iştirakçılarına şəxsi imzalı kitabını hədiyyə etdi.

Qeyd edək ki, kitabın fransız dilindən Azərbaycan dilinə tərcüməçisi Kolmar Apellyasiya Məhkəməsi yanında andlı tərcüməçi, məhkəmə eksperti Elnarə Ramazanovadır.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Ordu-cəmiyyət arasında mənəvi körpü: əsgər sevgisi və şagird məktubları

***Ənənəmizə sadiq qalaraq, bu günlərdə yolumuzu Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrindən birinə saldıq. Bu ziyarət bizim üçün sadəcə bir görüş deyil, əsgər və zabitlərimizin gündəlik fəaliyyətini, onların xidmət şəraitini və ən əsası, qəlblərində gəzdirdikləri o sarsılmaz Vətən eşqini yaxından hiss etmək imkanı idi. Görüş zamanı hərbi qulluqçuların, əsgərlərin xidmət şəraiti, gündəlik fəaliyyəti, əhvali-ruhiyyəsi və qazandıqları təcrübə barədə ətraflı məlumatlar əldə etmək, ən əsası səmimi söhbətləşmək imkanımız oldu. Eyni zamanda, əsgərlərin Vətənə, dövlətə və xalqa xidmətlə bağlı dərin düşüncələrini, hərbi xidmətə münasibətlərini öyrəndik. Onların öz xidmətlərinə məsuliyyətlə yanaşmaları ilə bağlı söylədikləri fikirlər təqdirəlayiqdir desək, yanılmarıq. Bu baxımdan onlarla apardığımız söhbətlər zamanı olduqca maraqlı və məzmunlu məqamlar üzə çıxdı ki, bu da hərbi hissədəki mənəvi-psixoloji hazırlığın yüksək səviyyədə olduğunu bir daha təsdiqlədi.***



Ordumuzun daxilindəki bu ruh yüksəkliyi təkcə hərbi intizamla deyil, həm də xalqımızın hərbçilərimizə olan sonsuz etimadı ilə qidalanır. Elə bu mənəvi birliyin təzahürü kimi, görüş çərçivəsində orta məktəb şagirdləri tərəfindən yazılmış səmimi məktubları əsgərlərimizə təqdim etdik. Əsgərlər həmin məktubları böyük maraq və duyğu ilə oxuyaraq hər bir şagirdə fərdi cavab məktubları yazdılar. Bu qarşılıqlı yazışmaların məktəblilərlə əsgərlər arasında mənəvi körpü yaradaraq vətənpərvərlik hisslərinin daha da güclənməsinə xidmət etdiyini düşünürük. Məhz bu cür mənəvi bağlar ön xətdə dayanan hər bir nəfərin məsuliyyətini daha da artırır və onlarda qələbə ruhunu daim diri saxlayır.

Məsuliyyətli zabitlərimizdən olan kapitan **Elşən Eminli** ilə həmsöhbət olduq. 1995-ci il dekabrın 4-də Goranboy rayonunun Qızılhacılı qəsəbəsində anadan olan Elşən hələ uşaq yaşlarından qəlbində hərb sənətinə böyük maraq və Vətənə xidmət arzusu olub. Elə bu müqəddəs amalla o, hərbi təhsilinə 2011-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə başlayıb və 2014-cü ildə liseyi müvəffəqiyyətlə bitirərək zabitlik yolunda ilk böyük addımını atıb. Hərbçi olmaq istəyi onu elə həmin il Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) aparıb və 2018-ci ildə həmin məktəbi bitirərək müdafiə nazirinin əmrinə əsasən, "leytenant" hərbi rütbəsinə layiq görülüb və Azərbaycan Ordusunda qürurla xidmətə başlayıb. Həmsöhbətimiz bu gün taborda vəzifələrini eyni əzmlə icra edir. O, xidmətinin fəlsəfəsini və əsgərlərlə olan səmimi münasibətini belə ifadə etdi: "Mənim üçün vətənpərvərlik yalnız söz deyil, həyat amalıma çevrilmiş müqəddəs bir anlayışdır. Vətənə sevgi hər bir insanın daxilindən gələn ən ali hisslərdən biridir və mən də xidmətim dövründə dövlətimə, xalqıma sədaqətlə xidmət etməyə çalışıram. Vətən müharibəsində iştirak etmək mənim üçün həm böyük şərəf, həm də böyük bir məsuliyyət idi. O günləri hər zaman xalqımızın dəmir yumruq kimi birləşdiyi, ordumuzun isə rəşadət dastanı yazdığı qürur dolu anlar kimi xatırlayıram. Döyüş meydanında keçirdiyimiz hər dəqiqə bizə torpağın müqəddəsliyini və azadlığın qiymətini bir daha öyrətdi. Bu gün mən, Ali Baş Komandanımızın ölkəmizdəki hərbi hissələrdə zabit və əsgər heyəti üçün yaratdığı şəraitdən, hər cür təminatdan səmərəli istifadə edərək, əsgərlərimizin peşəkarlıq səviyyəsinin artırılmasına çalışıram. Onların hər birinə bir komandir olmaqla yanaşı,





həm də bir qardaş kimi yanaşıram. Əsgərlərimizin fiziki hazırlığı ilə bərabər, onların dünyagörüşünün formalaşması, asudə vaxtlarının sə-



mərəli təşkili və mənəvi dünyalarının zənginləşməsi üçün əlimdən gələni edirəm. Məqsədim odur ki, onlar hərbi biliklərə dərindən yiyələnsinlər və gələcəkdə cəmiyyət üçün layiqli, vətənpərvər fərdlər kimi yetişsinlər".

Zabitin bu səmimi və qardaşlıq üzərində qurulan fikirlərindən sonra hərbi hissədə xidmət edən əsgərlərimiz də bizimlə həmsöhbət oldular və öz ürək sözlərini bölüşdülər.

**Əsgər Kərim Orucov:** "Mən Ağstafa rayonunun Xətai kəndindənəm. Artıq 10 aydır ki, motoatıcı bölükdə xidmət edirəm. Vətən torpaqlarının keşiyində dayanmaq mənim üçün həm qürur, həm də müqəddəs borcdur. Şəhidlərimizin canı, müharibədə yaralananların qanı bahasına azad edilmiş, ərazi bütövlüyü bərpa olunmuş bu müqəddəs torpaqlarımızın hər qarışını qorumaq bizim üçün ən ali şərəfdir. Biz buradakı xidmətimizlə o qəhrəmanların davamçıları olduğumuzu sübut edirik. Bu gün şagirdlərdən gələn məktubları oxuyanda olduqca duyğulandım. Onların bizə olan inamı, o balaca əlləri ilə yazdıqları böyük dualar bizə dağ boyda güc verir. Onlara cavab yazarkən hiss etdim ki, biz təkcə sərhədi deyil, həm də o məsum uşaqların gələcəyini və arzularını qoruyuruq".

**Əsgər Nurlan Quliyev:** "Naxçıvan şəhərində anadan olmuşam. Bir ildən artıqdır ki, Azərbaycan Ordusunda xidmət edirəm və bu mənim üçün böyük şərəfdir. Əsgərlik dövrü insanın həm fiziki, həm də mənəvi cəhətdən formalaşmasında mühüm rol oynayır. Burada Vətən sevgisi daha da güclənir. Zəfər qazandığımız Vətən müharibəsindən sonra bərpa edilmiş ərazi bütövlüyümüzü qorumaq,



şəhidlərimizin bizə əmanət qoyduğu torpaqlarımızda ayıq-sayıq dayanmaq hər birimizin vicdan borcudur. Şagirdlərin bizə ünvanladığı məktubları oxuyanda xalqımızın birliyini bir daha hiss etdim və daxilən duyğu hissi keçirdim. O sətirlərdəki sevgi bizə unudulmaz anlar yaşatdı. Onlara cavab yazarkən qürur duydum ki, xalqımız öz əsgərinə belə böyük dəyər verir".

**Əsgər Fərid İsrayılov:** "Ucar rayonundan hərbi xidmətə çağırılmışam və 6 aydır ki, xidmətdəyəm. Hərbi xidmət mənim üçün Vətənə sədaqətin ən ali nümunəsidir. Xidmət dövründə hərbi intizamın, məsuliyyətin və Vətən sevgisinin əsl mənasını daha dərindən anlayırıq. 44 günlük Vətən müharibəsində ordumuzun qazandığı böyük Zəfər hər bir Azərbaycan gənci üçün qürur mənbəyidir. Biz bu gün azad olunmuş torpaqlarımızın keşiyində dayanan əsgərlər kimi şəhidlərimizin ruhu qarşısında baş əyir və onlara layiq olmağa çalışırıq. Məktəblilərdən gələn məktublar isə ruhumuzu təzələdi, onları oxumaq hər birimizi dərindən duyğulandırdı. O məktubları oxuyanda içimdəki vətənpərvərlik hissi daha da coşdu. Onlara cavab yazanda hər bir kəlməni ürəyimlə yazdım, çünki bilirdim ki, o uşaqlar bizi özlərinə qəhrəman bilirlər".



Hərbi hissədən ayrılarkən qəlbimizdə böyük bir rahatlıq və sonsuz qürur hissi var idi. Gördüklərimiz və eşitdiklərimiz bir daha sübut etdi ki, Azərbaycan Ordusu təkcə müasir silahları ilə deyil, həm də sarsılmaz mənəviyyatı və xalqına olan bağlılığı ilə yenilməzdir. Şagirdlərin göndərdiyi kiçik məktubların əsgər qəlbində yaratdığı o böyük fırtına, əslində, dövlətimizin sarsılmaz təməli olan ordu-xalq birliyinin ən bariz nümunəsidir. Sərhəddə ayıq-sayıq dayanan Elşən Eminli kimi zabitlərimiz, Kərim, Nurlan və Fərid kimi məğrur əsgərlərimiz olduğu müddətcə, şəhidlərimizin qanı ilə suvarılmış bu torpaqlar hər zaman əmin əllərdə olacaq. Biz də bu müqəddəs yolda gecəsini gündüzünə qatan hər bir Vətən övladına eşq olsun deyir, onlara çətin və şərəfli xidmətlərində uğurlar arzulayırıq. Vətən sizə, siz isə Allaha əmanətsiniz!

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin mətbuat katibi**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu: 1918-1920-ci illərdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu.**

**Suallar:**

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması.
2. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.
3. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri.

### Azərbaycan Xalq Cümhuriyyətinin yaranması

Müstəqil milli dövlətə sahib olmaq hər bir xalqın ən böyük uğuru və tarixi nailiyyətidir. Xalqımız yadellilərlə mübarizə apararaq yurd yerlərini işğaldan qoruyub, həmişə də öz taleyinə sahib olmağa, özünün müstəqil dövlətini qurmağa can atıb. 1918-ci ilin mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və fəaliyyəti Azərbaycanın zəngin dövlətçilik tarixində çox mühüm bir mərhələni təşkil edir. Tarix boyu Azərbaycanın ərazisində müxtəlif dövlətlər qurulsa da, ayrı-ayrı səbəblər üzündən uzun müddət yaşaya bilməyib. Xalq Cümhuriyyətinin yaradılması, əslində, 1828-ci ildə baş tutan işğaldan sonra xalqımızın itirilmiş dövlətçiliyinin bərpası idi.

Birinci Dünya müharibəsinin gedişində "xalqlar həbsxanası" olan Çar Rusiyası imperiyasının dağılması üçün real tarixi şərait yaranarkən Azərbaycan xalqı həm qədim dövlətçilik ənənələrinə, həm də ən müasir idarəçilik mədəniyyətinə yiyələndiyi üçün müstəqil dövlət halında yaşamağa hazır idi. 1917-ci ilin fevralında Rusiyada monarxiya rejimi devrildi. Hakimiyyətə gələn Müvəqqəti hökumət Müəssisələr Məclisinə seçkilər keçirdi. Lakin Müvəqqəti hökumət uzun müddət hakimiyyətdə qala bilmədi. 1917-ci ilin oktyabrında hakimiyyətdə çevriliş baş verdi. Ona görə də Cənubi Qafqazdan Müəssisələr Məclisinə seçilən deputatlar Rusiyaya gedə bilmədilər. Onlar 1918-ci il fevralın 14-də Tiflisdə Cənubi Qafqazın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini - Zaqafqaziya Parlamentini yaratdılar. Seymdə Müsəlman fraksiyasının Müəssisələr Məclisinə seçkilər zamanı Azərbaycanın, habelə bütün Cənubi Qafqazın bir milyondan çox türk-müsəlman seçicisinin səsini qazanmış 44 deputat təmsil edirdi. Müsəlman fraksiyası və ya Müsəlman Şurası, əslində, Zaqafqaziya müsəlman parlamenti funksiyasını yerinə yetirirdi. 1918-ci il aprelin 9-da Zaqafqaziya Seyminin Azərbaycan nümayəndələrinin tələbi ilə Zaqafqaziya Seymi Zaqafqaziyanın müstəqilliyini elan etdi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti yaradıldı. Lakin kəskin milli mənafe ziddiyyətləri onların konkret addımlar atmasına imkan vermədi. Nəticədə 1918-ci il mayın 25-də gürcü nümayəndələr Seymdən çıxdılar və mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər. Mayın 28-də isə Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi Konstitusiya aktı statusuna malik olan ilk hüquqi sənəd - "İstiqlal Bəyənnaməsi"ndə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan olunmuş, onun hakimiyyətinin şamil edildiyi ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmışdır.

Lakin əfsuslar olsun ki, müstəqilliyə gedən yol heç də rəvan olmamış, cümhuriyyət yaranmamışdan öncə xalqımızın taleyində dəhşətli hadisələr baş vermişdir. Tarixin müxtəlif mərhələlərində "Böyük Ermənistan" ideyasını gerçəkləşdirməyə çalışan erməni millətçiləri bolşevik silahlı dəstələri ilə birgə 1918-ci ilin mart-aprel aylarında azərbaycanlılara qarşı soyqırımı həyata keçirmişlər. Həmin günlərdə Bakı şəhərində və respublikamızın digər bölgələrində on minlərlə dinc sakin yalnız azərbaycanlı olduqlarına görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir.

### Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə dövlət quruculuğu

1918-ci il mayın 27-də Seymin Müsəlman Fraksiyasının, yəni, Zaqafqaziya müsəlman Şurasının üzvləri ayrıca iclas keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan Parlamenti elan etdi. Bununla, əslində, Azərbaycanın tarixində ilk parlament yarandı və ilk parlament respublikasının bünövrəsi qoyuldu. Həmin iclasda Azərbaycan Milli Şurasının rəyasət heyəti və sədri seçildi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. 1918-ci il mayın 28-də Gürcüstanın paytaxtı Tiflis şəhərində keçmiş seymin Azərbaycan fraksiyasının 44 nümayəndəsindən 26 nəfərinin iştirak etdiyi Milli Şuranın birinci iclasında Azərbaycanın müstəqil dövlət elan olunması haqqında qərar qəbul olundu və "İstiqlal Bəyannaməsi"nin mətni təsdiqləndi. Dövlət müstəqilliyinin Tiflis şəhərində elan edilməsinin əsas səbəbi ölkənin paytaxtı Bakı şəhərinin, başda Stepan Şaumyan olmaqla, cinayətkar bolşevik rejiminin əlində olması idi. Cənubi Qafqaz respublikaları ilə sərhəd məsələləri qismən nizama salındıqdan sonra Azərbaycan Xalq Cümhuriyyəti Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqlarının 113.9 kv.km-ni əhatə etmiş, əhalisi isə 2.8 milyondan çox olmuşdur. Beləliklə, Birinci Dünya müharibəsinin gedişində və Romanovlar monarxiya rejiminin devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, parlamentli respublika formasında dirçəldi.

Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərinin yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb bir daxili və beynəlxalq tarixi şəraitdə fəaliyyət göstərən Azərbaycan Parlamenti öz fəaliyyətinin mühüm hissəsini dövlət müstəqilliyinin qorunub saxlanılmasına və ordu quruculuğu məsələlərinə yönəltmişdi. 1918-ci il noyabrın 1-də Nazirlər Şurasının qərarı ilə Hərbi Nazirlik yarandı. F.Xoyski nazir, S.Mehmandarov nazir müavini təyin edildi və nazirliyin formalaşdırılması ona həvalə edildi. Ordu quruculuğuna türk və rus təcrübəsinin güclü təsirə malik olmasına baxmayaraq, Azərbaycanda milli zəminə söykənən ordu formalaşdırıldı. Hərbi Nazirliyin bərpa edilməsindən sonra ilk növbədə pərakəndə olan hissələri möhkəmləndirmək, onları vahid rəhbərlik altına gətirmək üçün mərkəzi hərbi idarəetmə orqanlarının təşkilinə diqqət yetirildi. Qısa müddət ərzində Hərbi Nazirliyin aparatı və ümumi qərargah (Qlavnıy ştab) yaradıldı.

Mudros müqaviləsinin şərtlərinə görə Bakıya gəlməli olan ingilis qüvvələri komandanı general Tomson hələ Azərbaycana qədəm qoymamışdan əvvəl tələb edirdi ki, türk qoşunları kimi, Azərbaycan qoşunları da 1918-ci il noyabrın 17-dək Bakı şəhərini tərk etsinlər. Çünki Tomson Bakı şəhərini istər iqtisadi baxımdan, istərsə də hərbi-siyasi cəhətdən mühüm strateji mərkəz sayırdı və ona nəzarəti tamamilə əlində saxlamaq istəyirdi. O, müstəqil Azərbaycan hökumətini tanımaq istəmədiyi kimi onun nəzarəti altında olan qüvvələrə də etibar etmirdi. Bu səbəbdən 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncə şəhərinə köçdü. Hərbi Nazirliyin Gəncə şəhərinə köçürülməsi, şübhəsiz ki, hökumət orqanlarının əlaqələrində və bütövlükdə ordunun formalaşması prosesində çətinliklər yaradırdı.

Hərbi Nazirlik yaradılana qədər mövcud olan hissə və birləşmələr tarixi şəraitlə əlaqədar Gəncə şəhərində və Qarabağda yerləşdirilmişdir. 1918-ci ilin sonu 1919-cu ilin əvvəlində Hərbi Nazirliyin rəhbərliyində və strukturunda qismən dəyişiklik edildi ki, bu da ordunun formalaşması prosesinə müsbət təsir göstərdi. Tam artilleriya generalı S.Mehmandarov hərbi nazir, general-leytenant Ə.Şıxlinski hərbi nazirin müavini təyin edildi. Onların təcrübəsi və biliyi orduda quruculuq işlərinin səmərəli xarakter almasına zəmin yaratdı. Orduda xidmətin təşkilinin hüquqi əsasda nizamlanmasına xüsusi diqqət yetirildi. Qısa müddət ərzində Azərbaycan Ordusunun yeni qanunvericilik bazasının yaradılması mümkün olmadığı üçün 1917-ci il yanvarın 1-dək keçmiş Rusiya imperiyasında qəbul edilmiş hərbi qanunvericilik aktları qüvvədə saxlanılırdı. Ancaq bu qanunvericilik aktlarının Azərbaycan müstəqilliyi, milli orduda xidmətin bu və ya digər uyğun gəlməyən tələbləri ləğv edilirdi. Azərbaycan dili orduda da dövlət dili elan edildi. Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi üçün orduda kurslar yaradıldı. Azərbaycan döyüşçüsünün mənəvi dünyasının yaradılmasında mənsub olduğu xalqın tarixi keçmişinin öyrənilməsinə, onun qəhrəmanlıq nümunələri üzərində tərbiyələndirilməsinə böyük əhəmiyyət verilirdi. Hərbi Nazirliyin bərpasının ilk günlərindən hərbi qulluqçuların geyim formasının da milliləşdirilməsi və onun Azərbaycan Ordusuna uyğunlaşdırılması üçün zəruri tədbirlər görüldü.

Yeni dəyərlər üzərində qurulan ordunun milli kadrların hazırlanmsı da Hərbi Nazirliyin qarşısında duran əsas vəzifələrdən biri idi. Bu vəzifənin həllinə nail olmaq üçün hələ türk qoşunlarının Azərbaycanda olduğu vaxt Gəncə şəhərində fəaliyyət göstərən hərbi məktəbin fəaliyyəti yenidən quruldu və onun statusu artaraq Praporşiklər Məktəbinə çevrildi. Praporşiklər Məktəbinin bazasında Hərbiyyə məktəbi açıldı. Bundan başqa, Azərbaycan Ordusunun milli hərbi kadrlar hazırlayan İstehkam və Hərbi dəmiryolçular Məktəbi, həmçinin Feldşer Məktəbi açıldı.

### Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri

Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq aləmdə tanınmasına baxmayaraq, ölkənin şimal sərhədlərindəki vəziyyət gərgin olaraq qalırdı. Rusiyanın cənubunda Denikinin qoşunlarına qalib gələn bolşeviklər Bakı neftinə sahib olmaq üçün öz qüvvələrini Azərbaycan Xalq Cümhuriyyətinin sərhəddinə cəmləşdirərək işğala hazırlaşırdılar.

Sovet Rusiyası Ermənistanın Azərbaycana qarşı düşmənçiliyindən məharətlə istifadə edirdi. 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Moskvada ərazi güzəştləri müqabilində Azərbaycan hökumətini devirmək üçün Qarabağ və Gəncəbasarda məskunlaşan erməni əhalisinin qiyamını təşkil etmək təklifini verdilər. 1920-ci ilin martında Qarabağda kütləvi erməni hücumlarının başlanması ilə əlaqədar Azərbaycan Ordusunun əsas qüvvələri bu bölgədə yerləşdirilmişdi. Şimal sərhədlərini qoruyan qüvvələrin böyük bir hissəsi də Qarabağa göndərilmişdi. Erməni silahlı birləşmələri ilə döyüşlərdə Azərbaycan Ordusunun hissələri canlı qüvvə, silah-sursat və əmlak itkilərinə məruz qalmışdılar. Aprelin 27-də parlamentin iclasında hərbi nazir Səməd bəy Mehmandarov ölkəni müdafiə barədə sorğuya cavab olaraq bildirdi ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə müqavimət göstərməyə qadir olsa da, bolşeviklərin hücumunun qarşısını almaq üçün kifayət qədər qüvvəyə malik deyildir.

1920-ci ilin aprelində Denikinin qoşunlarını məğlub edən XI Qırmızı Ordu Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərinə yaxınlaşdı. Həmin günlərdə A.Mikoyan başda olmaqla, Bakı bolşevikləri Azərbaycan xalqı adından XI Qırmızı ordunu Azərbaycana dəvət etdilər. Aprelin 26-dan 27-nə keçən gecə XI Qırmızı Ordunun hissələri Azərbaycan ərazisinə daxil olub, Bakıya doğru irəliləməyə başladılar və Azərbaycan parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum verildi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi. Aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olundu. Aprel işğalı nəticəsində Azərbaycanda bolşevik rejiminin ömrü 70 il çəkdi. Lakin bu illərdə xalq özünün istiqlal arzularını unutmadı, nəsildən-nəslə ötürdü.

1918-ci il mayın 28-də Şərqdə ilk dövlət quruluşu kimi yaranmış Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın müstəqillik tarixinin başlanğıcı olmaqla, milli dövlətçilik salnaməsini müstəsna halda zənginləşdirmişdir. Cəmi 23 ay yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti sübut etmişdir ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadirdir.

(Ardı 8-ci səhifədə)

## Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(Əvvəli 7-ci səhifədə)

1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktında Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna belə qiymət verildi: "1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin".

Müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının dövlət quruculuğunda Azərbaycan Xalq Cümhuriyyətinin təcrübəsindən istifadə xətti götürüldü. Həmin dövrün dövlət rəmzləri yenidən qəbul edildi. Lakin Azərbaycan Respublikasının Dövlət Müstəqilliyini bərpa etdiyi ilk günlərdən Ermənistan tərəfinin ərazi iddiaları, hakimiyyət uğrunda ölkədaxili çəkişmələr dövlət quruculuğunu ləngidir, müstəqilliyimizə təhlükə yaradırdı. 1991-1993-cü illərdə Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyətin dövlətçiliyimizi təhlükə altına qoyduğunu dərk edən hakimiyyət xalqın təkidi ilə görkəmli dövlət xadimi, böyük dövləti idarəetmə təcrübəsinə malik olan Ulu Öndər Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət etdi. Məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra apardığı müdrik və uzaqgörən daxili və xarici siyasət nəticəsində Azərbaycan quruculuğunda və bu quruculuğun vacib sahələrindən biri olan ordu quruculuğunda əsaslı dönüş yarandı. Bu gün Azərbaycan nəinki öz müstəqilliyini qoruyub saxlaya bilmiş, hətta dünya dövlətləri arasında böyük nüfuza malik olan bir dövlət kimi öz layiqli yerini tutmuşdur.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətini xüsusi vurğulayaraq demişdir: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaradılması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhvali-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

**İdeoloji Təminat İdarəsi**

## Redaksiyamızın poçtundan

### Mənim Xarıbülbülüm!



*Bakı şəhəri 20 saylı məktəb-liseyin 9-cu sinif şagirdi Sevinc Həsənova redaksiyamızın poçtuna Qarabağın simvolu olan Xarıbülbülə həsr etdiyi şeirini göndərmişdir. Həmin şeiri təqdim edirik.*

**"Azərbaycan Ordusu"**



Vurğunam mən sənin gözəlliyinə,
Meylim düşüb sənə sarı, bülbülüm.
Ruhumu titrədir Şuşa həsrəti,
A Xarıbülbülüm, Xarıbülbülüm!

8 noyabr gəldi Vətənə,
Necə gözəlləşdin o səhərlə sən.
Dinlədik qəlbinin musiqisini,
Böyük nəğməkarsan bu Zəfərlə sən!

Heyranam mən sənin gözəlliyinə,
Səni hər ürəkdə sevinc gözləyir.
Sən Vətən gülüsən, Vətənə görə
Mən adda, nişanda Sevinc gözləyir.

## Xəbərlər: hadisələr, faktlar

### Litvanın müdafiə naziri Avropa ordusunun yaradılmasına qarşı çıxıb



Litva müdafiə naziri Robertas Kaunas Avropa İttifaqı (Aİ) müdafiə nazirlərinin Brüsseldə keçirilən görüşündə ortaq Aİ ordusunun yaradılması təşəbbüsünə qarşı çıxıb.

Bu barədə Litva Müdafiə Nazirliyi məlumat yayıb. Litvalı nazir həmkarlarını Avropa ordusu və NATO alyansını təkrarlayan digər formatlar haqqında danışmağa enerji sərf etməməyə çağırıb.

"Biz bütün NATO ölkələrinin və eyni zamanda, bütün Avropanın hərbi imkanlarının gücləndirilməsinə və hazırlığına diqqət yetirməliyik. Bu, bizə məhdud resursları daha yaxşı əlaqələndirmək və onlardan səmərəli şəkildə istifadə etmək imkanı verəcək", - deyə Robertas Kaunas bildirib.

### "NATO-Serbiya" hərbi təlimi: 600 hərbçi və 9 ölkədən müşahidəçi



Serbiya Buyanovats şəhəri yaxınlığındakı "Cənub" hərbi bazasında və "Borovats" təlim poliqonunda ilk dəfə olaraq NATO-nun Neapoldakı Birgə Qüvvələr Komandanlığı birgə hərbi təlimlər keçirəcək.

Bu barədə Serbiya Müdafiə Nazirliyi məlumat yayıb. "Serbiya Silahlı Qüvvələrinin, o cümlədən İtaliya, Rumıniya və Türkiyə ordusunun təxminən 600 hərbçisi "NATO-Serbiya" adlı təlimlərə cəlb olunub. Böyük Britaniya, İtaliya, Almaniya, Rumıniya, ABŞ, Serbiya, Türkiyə, Fransa və Monteneqrodan olan hərbi strateqlər və müşahidəçilər təlimlərin gedişini izləyəcək", - deyə məlumatda bildirilir.

İkihəftəlik səhra təlimi zamanı sülhün təmin olunması, bazaların mühafizəsi, nəzarət-buraxılış məntəqələrinin fəaliyyəti, kütləvi yığıncaqların idarə olunması və şəhər döyüşləri əməliyyatlarında istifadə edilən taktikalar üzrə məşqlər keçiriləcək. Nazirlik təlimlərin mayın 23-dək davam edəcəyini bildirib.

Serbiya Prezidenti Aleksandr Vuçiç təlimlərə baxmayaraq, Belqradın NATO-nun 1999-cu il bombardmanını unutmayacağını bildirib.

Qeyd edək ki, Müttəfiq Qüvvələr 1999-cu ildə Kosovoda alban əhalinin soyqırımının qarşısının alınması məqsədilə Yuqoslaviyaya qarşı 78 gün davam edən hərbi əməliyyat keçirib. Belqradın məlumatına görə, bombardmanlar nəticəsində 3500 nəfər insan həlak olub, təxminən 10 min nəfər yaralanıb ki, bunların da üçdə ikisi mülki şəxslərdir. Hərbi əməliyyatlar zamanı ölkəyə dəyən maddi zərər 100 milyard dollara çatıb.

### ABŞ-də "Qızıl Günbəz" raketdən müdafiə sisteminin dəyəri 1,2 trilyon dollar qiymətləndirilir



ABŞ-nin "Qızıl Günbəz" adlı yeni raketdən müdafiə sisteminin hazırlanması, yerləşdirilməsi və 20 il ərzində istismarı təxminən 1,2 trilyon dollara başa gələ bilər.

Bu barədə Konqresin Büdcə İdarəsi tərəfindən yayımlanan hesabatda bildirilir.

Sənədə əsasən, layihənin ən böyük xərc hissəsi silah və texniki vasitələrin alınması ilə bağlı olacaq. Bu istiqamətdə xərclərin təxminən 1,03 trilyon dollar təşkil edəcəyi gözlənilir.

Hesabatda qeyd olunur ki, ən bahalı komponent kosmik tutucu sistemlər olacaq. Onlar ümumi silahlanma xərclərinin təxminən 70 faizini, layihənin ümumi dəyərinin isə 60 faizini təşkil edəcək.

Bundan əlavə, "Qızıl Günbəz" sisteminin ABŞ-ın kontinental hissəsində yerləşdiriləcək dörd yerüstü "Aegis Ashore" raketdən müdafiə kompleksini də əhatə etməsi planlaşdırılır. Hər kompleksin 48 ədəd SM-3 Block IIA zenit-raket sistemi ilə təchiz olunacağı bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

## İdman

### Azərbaycan güləşçisi Avropa çempionu olub



Bolqarıstanın Samokov şəhərində güləş üzrə U-17 Avropa çempionatı davam edir.

Üçüncü yarış günündə yunan-Roma güləşi üzrə mübarizəyə yekun vurulub.

Əli Cavadlı (45 kq) finalda rusiyalı Umar Boqatıryova heç bir şans verməyib. Həmyerlimiz görüşün taleyini ilk hissədə həll edib. Rəqibinə tam üstünlüklə (9:1) qalib gələn Əli Avropa çempionu olub.

Hüseyn Mustafazadə (51 kq) təsəlliverici görüşdə isveçrəli Tristan Berneti (9:0), bürünc medal uğrunda qarşılaşmada isə gürcüstanlı Davit Şavadzeni (9:1) vaxtından əvvəl məğlub edərək fəxri kürsünün 3-cü pilləsinə yüksəlib.

Elmir Çərkəzov (60 kq) ilk təsəlliverici görüşdə avstriyalı Lionel Vinteri üstələsə (9:0) də, ikinci təsəlliverici görüşdə moldovalı Vlad Duminikaya uduzub - 0:8.

Zöhrab Səfərov isə moldovalı Vladislav Vasilevskiyə tam üstünlüklə (9:0) qalib gələrək bürünc medalı boynundan asıb.

Beləliklə, millimiz qitə birinciliyini 1 qızıl, 2 gümüş və 3 bürünc medalla başa vurub. Yekunda 118 xal toplayan yığmamız komanda hesabında Avropa üçüncüsü olub.

### Azərbaycan parataekvondoçusu Avropa çempionatında gümüş medal qazanıb



Almaniyanın Münxen şəhərində parataekvondo üzrə Avropa çempionatı davam edir.

Qitə çempionatının üçüncü günündə K44 kateqoriyası üzrə 70 kiloqram çəki dərəcəsində mübarizə aparan İmaməddin Xəlilov 1/4 finalda polşalı Labedzki Przemislav, yarımfinalda isə gürcüstanlı Giorgi Nikoladze üzərində qələbə qazanaraq finala yüksəlib.

Finalda türkiyəli Yusuf Yünaçtıya məğlub olan İ.Xəlilov karyerasında ikinci dəfə Avropa çempionatının gümüş medalını qazanıb.

Qeyd edək ki, daha əvvəl parataekvondoçumuz Sabir Zeynalov (58 kq) qitə çempionatında gümüş medala layiq görülüb.

### Azərbaycanın 7 karateçisi Avropa çempionu olub



Azərbaycan karateçiləri Rumıniyanın Sfıntu-George şəhərində keçirilən fudokan üzrə Avropa çempionatında 9 medal qazanıblar.

Babək Qələmzadə fərdi kumite üzrə böyüklər arasında mütləq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək qitə çempionu olub.

Elmir Kazımzadə (10-11 yaş, 40 kq), Qorxmaz Səfərli (14-15 yaş, 65 kq), Rəvan Şirinov (16-17 yaş, 65 kq), Elton Əliyev (16-17 yaş, 75 kq), Mehdi Abdullayev (16-17 yaş, +75 kq) və Tahir Ələkbərov (U-21, +75 kq) öz kateqoriyalarında birinci yeri tutublar.

Əli Hacıyev (U-21, 75 kq) gümüş, Ayxan Pirquluyev (16-17 yaş, 65 kq) isə bürünc mükafata sahib çıxıb.

**AZƏRTAC-ın materialları əsasında**

Leytenant Məlikov Anar Vəli oğluna verilmiş MN № 0068247 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


**Redaktor** mayor Ceyhun CƏFƏRLİ

**Telefon** Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçi: (012) 404-76-22

**Ünvanımız** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı** 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi** baş leytenant Əli ABIYEV

Lisenziya № 361 Sifariş № 506 Nüsxə 3653